## SADƏ VƏ TƏVAZÖKAR İNSAN

## RAMİZ KƏRƏM OĞLU ƏLƏKBƏROV
## (1961-2020)



15 dekabr 2020-ci ildə acı bir xəbər hamını üzdü. Həmin gün AMEA Folklor İnstitutunun Şəki bölməsinin rəhbəri, Yazıçılar Birliyinin üzvü, sadə və təvazökar bir insan, incə duyğular şairi olan Ramiz Kərəm oğlu Ələkbərov ömrünün 59-cu ilində gözlərini əbədi olaraq yumdu.

Ramiz Kərəm oğlu Ələkbərov 1961-ci il mayın 22-də Gədəbəy rayonunun Ataxal kəndində anadan olmuşdur. O, 1977-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (İndiki Azərbaycan Pedaqoji Universitetinin) filologiya fakültəsinə daxil olmuş və 1981-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirmişdir. R.Ələkbərov Azərbaycan Pedaqoji Universitetini bitirdiyi ildən etibarən, 1981-ci ildən 2006-cı ilə qədər müxtəlif tədris müəssisələrində pedaqoji sahədə səmərəli fəaliyyət göstərmişdir. Ramiz Ələkbərov 2010-cu ildən isə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun “Aşıq yaradıcılığı” şöbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır. 2015-ci ildən etibarən R. Ələkbərov Folklor İnstitutunun Şəki bölməsinin rəhbəri vəzifəsində çalışmışdır.

R. Ələkbərov həm də incə ruhlu şeirlər müəllifi kimi tanınmışdır. O, şeirlərini Ramiz Kərəm imzası ilə yazırdı. 1980-ci ildə böyük ədəbiyyata gələn Ramiz Kərəm özünəməxsus dəst-xətti olan şairlərimizdən olmuşdur. R.Kərəm öz müşahidələri, kövrək duyğuları və düşüncələri ilə seçilən, gəlimli- gedimli dünyanın məğzinə, dünyanın əşrəfi sayılan insanın mahiyyətinə dərindən bələd olan bir şair idi.

R. Kərəm “Bütün sevdiklərim, unutduqlarım” (“Avropa” nəşriyyatı, Bakı, 2007), "Mən sözdən asıldım" (“Vətənoğlu” nəşriyyatı, Bakı, 2015) və “Sərçə qanadında qurğuşun yükü” (“Zərdabi”nəşriyyatı, Bakı, 2020) adlı kitabların müəllifidir. Bu kitablara daxil olan şeirlərdə Ramiz Kərəmin təbiət və cəmiyyət hadsələrinə özünəməxsus yanaşma tərzi, baxış sistemi qabarıq hiss olunur. Onun şeirlərinin ümumi mənzərəsinə diqqət yetirsək, görərərik ki, burada Azərbaycanın bənzərsiz gözəlliklərindən, yurdumuzun igid, qəhrəman övladlarından, tariximizin şərəfli səhifələrindən, əbədi və əzəli bir insani hiss olan məhəbbətdən və s. bu kimi mövzulardan poetik bir dillə bəhs olunur. Ramiz Kərəmin şeirlərinin ən mühüm cəhətlərdən biri isə onun şeirlərində yaşadığımız dünyanın və zamanın ruhunun, eləcə də, saza, sözə, ümumiyyətlə, milli-mənəvi dəyərlərə bağlılıq hisslərinin səmimi şəkildə əks etdirilməsidir.

Ramiz Kərəmin məhəbbət mövzulu şeirlərindən çıxan ideyanı, ana xətti isə bu şəkildə ümumiləşdirmək olar: məhəbbət ülvi bir hiss olub, hər şeydən əvvəl sevib-seçdiyin adam üçün, onun taleyi, gələcəyi və xoşbəxtliyi üçün məsuliyyət daşımaq deməkdir. Müəllifin bu mövzuda yazdığı şeirlərdən çıxan qənaətə görə, məhəbbət insan qəlbinin, ruhunun, idrakının, ağlının birliyi və vəhdətidir.

Təəssüf ki, amansız ölüm sadə, təvəzökar və mehriban bir insan olan Ramiz Kərəm – Ələkbərovu 59 yaşında yaxaladı... Ramiz Ələkbərovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır. Allah rəhmət eləsin!

***Tahir ORUCOV***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***